## Hüquq məsləhətxanamız

***Samirə Musayeva***
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Azərbaycanda POS-terminalların istifadəsi və tətbiqi ilə bağlı məsələlər necə tənzimlənir?

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən, «Ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır».

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli qərarı ilə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları» təsdiq edilmişdir.

Qaydaların 1.2-ci bəndinə əsasən, müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların bu Qaydaların 1 nömrəli Əlavəsindəki cədvəl üzrə mərhələlərlə quraşdırılması, qeydiyyatı, istifadəsi, habelə POS-terminalların tətbiqi ilə bağlı digər münasibətləri tənzimləyir.

Qaydalarda göstərilir ki (3.1-ci bənd), təsərrüfat subyektlərində quraşdırılan və istifadə edilən POS-terminallar aşağıdakı ümumi texniki tələblərə cavab verməlidir:

· POS-terminal beynəlxalq ödəniş kartlarının qəbulu üçün müvafiq sertifikata malik olmalıdır;

· Məlumat daşıyıcısı həm maqnit lent, həm də inteqral sxem (mikroprosessor) olan kartlar vasitəsilə əməliyyatların həyata keçirilməsi imkanına malik olmalıdır;

· POS-terminalda kartlar vasitəsilə PİN-kodun daxil edilməsi tələb olunan əməliyyatların aparılması üçün nəzərdə tutulmuş klaviatura (POS-terminalın inteqrə edilmiş və yaxud POS-terminalla əlaqəsi olan ayrı avadanlıq kimi) olmalıdır;

- POS-terminalın texniki parametrləri bank ekvayer və ya xidmət mərkəzi tərəfindən dəstəklənmə imkanlarına malik olmalıdır.

Post-terminallarla əməliyyat həyata keçirilən zaman əməliyyatçı kartlar vasitəsilə ödənişin qəbul edilməsi zamanı kart istifadəçisinə özündə aşağıdakı məcburi rekvizitləri əks etdirən qəbzin verilməsini təmin edir:

· bank ekvayerin adı;
· sifarişçinin adı və VÖEN-i;
· qəbzin nömrəsi;
· əməliyyatın tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);
· xidmət mərkəzinin adı;
· POS-terminalın kodu;
· ödənişin məbləği;
· kartın təhlükəsizlik tələbləri çərçivəsində icazə verilən rekvizitləri;
· avtorizasiya kodu (əməliyyatın həyata keçirilməsi üçün icazənin alınması zamanı kart sahibinin tanınmasında istifadə olunan gizli şifrə).

Ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiqi cədvəlinə əsasən, 2012-ci ildə Bakı, Gəncə və Sumqayıt şəhərləri, 2013-cü ildə Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad şəhər və rayonlarında (kənd və qəsəbələr istisna olmaqla), 2013-cü ildə ərazisindən asılı olmayaraq vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanlarında, 2014-cü ildə digər rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla), 2015-ci ildə Azərbaycan Respublikasının bütün kənd və qəsəbələrində POS-terminalların quraşdırılması təmin ediləcəkdir.